# XIX əsr Azərbaycan ədəbiyyatı və incəsənətinin intibah dövrü



Mürsəl İrəvanlı,
Yazıçı-publisist,
M. Qorki adına Beynəlxalq mükafat laureatı
Gəncə şəhəri

III yazı

***İqtisadi və mədəni həyatdakı ümumi inkişafla əlaqədar olaraq, incəsənət sahəsində də müəyyən bir irəliləyiş özünü büruzə verirdi. Realist incəsənətin ayrı-ayrı sahələrində yeni gənc qüvvələr, istedadlı rəssamlar, bəzək ustaları, memar və musiqişünaslar yetişirdi.***

***İrəvanda Mirzə Qədim İrəvani (1825-1879), Şuşada Mir Möhsün Nəvvab (1833-1918) və Xurşid Banu Natəvan (1830-1897) bu dövrün görkəmli realist rəssamları idilər. Müşahidəçilik, həyatilik, konkretlik bu rəssamların yaradıcılığının əsas müsbət xüsusiyyətlərini təşkil edirdi.***

***Onların əsas təsvir hədəfləri təbiət və canlı insan idi.***

Bu dövrdəki incəsənətin ən istedadlı nümayəndələrindən olan Mirzə Qədim İrəvani progimnaziyada rusca təhsil aldıqdan sonra yaradıcılığa başlamış və ən yaxşı rəsm əsərlərini 50-60-cı illərdə yaratmışdı.O, mahir bir rəssam olmaqla yanaşı, eyni zamanda bacarıqlı naxış və bəzək ustası idi. Şüşə və dəri üzərində yağlı boya ilə çəkdiyi rəsmlər indiyədək öz parlaqlıq və təravətini itirməmişdir.

Yüzdən artıq şəkil çəkmiş Mirzə Qədim İrəvaninin əsərlərindən ancaq bir hissəsi dövrümüzə qədər gəlib çatmışdır. İrəvani xan sarayının güzgülü salonunun yenidən bərpası zamanı bu salon üçün parça üzərində çəkilən portretlər, Azərbaycan dövlət incəsənət muzeyində saxlanılan 22 əsər (“Dərviş”, “Molla”, “Rəqqasə”, “Pəhlivan”, “Gənc qadın portreti”, “Vəliəhd A.Aleksandroviç və knyagina Mariya Fyodorovna” və s.) onun zəngin bədii irsindən qalan qiymətli nümunələrdir. Bu əsərlər Mirzə Qədim İrəvanini öz dövrünün istedadlı bir incəsənət ustası kimi tanıtmaqdadır.

Mirzə Qədim İrəvanidən sonra Azərbaycanda XIX əsrin ikinci görkəmli rəssamı olan Mir Möhsün Nəvvab Şuşada təşkil olunmuş “Məclisi-xamuşan” şeir məclisinin başçısı, yüzə yaxın Qarabağ şairləri haqqında məlumat verən “Təzkireyi-Nəvvab”, klassik musiqidən bəhs edən “Vüzuhul-ərqam” kimi əsərlərin müəllifidir. Dini-idealist görüşlərinə baxmayaraq, Nəvvab incəsənət sahəsində əsasən realist bir yolla getmişdir. O, xəttat olmaqla bərabər, gözəl və zərif şəkillər çəkən miniatürçü rəssam idi. “Teymurləngin portreti”, sulu boya ilə çəkilmiş “Çiçəklər”, “Quşlar”, kimi əsərlərində Mirzə Qədim İrəvanidə olduğu kimi, dərin bir həyatilik və müşahidəçilik təzahürləri hiss olunur. S.Salamzadə yazırdı: “Mir Möhsün Nəvvabın əsərlərində ümumən kölgəli təsvir və qabarıqlıq prinsipinə riayət edilmiş və bu əsərlər çox davam edə bilən yağlı boyalarla çəkilmişdir. Vaxtilə Şuşada yaşadığı evin və dərs dediyi məktəbin divarlarına çəkdiyi rəsm və naxışları indiyə qədər öz təravət və parlaqlığını qoruyub saxlamışdır. Nəvvabın rəsm əsərləri içərisində “Şahnamə” əsəri qəhrəmanlarının, bir çox qədim dövr alim və mütəfəkkirlərin şəkilləri də vardır...”



(Bax: S.Salamzadə, Azərbaycan təsviri incəsənət, “Revalyusiya i kultura” jurnalı, 1941-ci il, N 5).

***Memarlıq sahəsində qədim abidələrin təmir və bərpası da unudulmur, yenilənirdi. Məsələn, 1851-ci ildə Şəki xan sarayının daxili və xaricindəki yararsız hala düşmüş divarları şəkili xalq ustaları tərəfindən təmir və bərpa edildi. 1886-cı ildə Bakıda İçəri şəhər qalasındakı Şah Abbas darvazası xalq memarı Kərbəlayı Məhəmməd Həsən Hacı Mahmud oğlu tərəfindən inşa edilərək başa çatdırılmışdır. Təbiidir ki, memarlıq da öz inkişafında klassik Azərbaycan memarlığının milli ənənələrinə əsaslanırdı.***

Əsrin birinci yarısında olduğu kimi bu dövrdə də, musiqi sənəti əsas etibarilə iki yolla inkişaf edirdi: biri xalq aşıq yaradıcılığı, o biri də xanəndə yaradıcılığı idi. Bunlardan əlavə, geniş xalq kütlələri içərisindəki istedad sahibləri xalqın həyatı və mübarizəsilə əlaqədar olaraq müxtəlif musiqi janrlarında əsərlər, xalq rəqsləri, mahnılar və s. yaradırdılar.

***Ustad aşıqlar şeirlə birlikdə yeni havalar da qoşurdular. Yoxsul kəndlilərin həyat və mübarizəsindən ilham alan xalq aşığı məhəbbət və gözəlliyi tərənnüm edən lirik mahnıları ilə xalqın ruhunu oxşayırdı. Saf, ülvi məhəbbət, həyata nikbin baxış, qəhrəmanlıq motivləri aşıq sənətinin əsas xüsusiyyətləri idi.***

Şəhərlərdə xanəndə və sazandarların əsasən muğamlardan ibarət olan musiqi sənəti inkişaf edirdi. Onlar muğam musiqisinin təkmilləşdirilməsi üzərində işləyərək muğamların yeni-yeni variantlarını, muğam əsasında təsniflər, mahnılar və oyun havaları yaradırdılar. Bu dövrdə Xarratqulu (1823-1883), Sadıqcan adı ilə məşhur olan Sadıq Əsəd oğlu (1846-1902), daha sonralar Ala Palas oğlu, Hacı Hüsü, Məşədi İsa, Keçəçi oğlu Məmməd, Cabbar Qaryağdı kimi məşhur xanəndələr yetişmişdi. Sadıqcan həm yaxşı səsi olan xanəndə, həm də mahir bir çalğıçı idi. O, tarın və muğamatın təkmilləşməsi üzərində işləyərək bu sahədə bir sıra yeniliklər yaratmışdır.

Musiqi sənətinin inkişafı ilə yanaşı, musiqiyə dair elmi-tədqiqat əsərləri də yaranırdı. Mir Möhsün Nəvvab qədim Azərbaycan alimlərindən Səfiəddin Əbdülmömin ibn Yusif Urməvi (XIII əsr) və Əbdülqadir Marağinin (XIV əsr) əsərlərindən istifadə edərək, musiqi istilahları, muğamat haqqında yığcam bir məlumat verən “Vüzuhül-ərqam” əsərini bu zamanlar yazmağa başlamışdı. Nəvvab öz əsərində muğamatı təhlil edərək onu şöbə və guşələrə bölmüş və buna aid xüsusi cədvəl tərtib etmişdi.

...XIX əsrin ikinci yarısında, mədəniyyətin başqa sahələrində olduğu kimi ədəbiyyat sahəsində də ciddi bir inkişaf dövrü başlandı.

Ədəbiyyatın mövzu dairəsi əhəmiyyətli dərəcədə genişləndi. Yeni məzmuna uyğun yeni forma və ədəbi janrlar yaranırdı. Ədəbiyyatda xəlqilik və realizm getdikcə qüvvətlənir, dil və üslub sadələşirdi.

Bu zaman Vaqif şeirinin ənənələri də yaşayardı. Bu cəhəti Göyçə mahalında Aşıq Ələsgərin, Qarabağda Məhəmməd Katibin, Güney Azərbaycanda Mirzə Mehdi Şükuhinin yaradıcılığında aydın görmək mümkündür. Əsrin qabaqcıl ədəbiyyatı olan realist ədəbiyyatın əsas yaradıcısı və 50-60-cı illərdə istiqamətverici siması M.F.Axundov idi. O, A.Bakıxanov, Mirzə Şəfi Vazeh və Q.Zakir tərəfindən ilk təməl daşı qoyulan, lakin özülü zəif olan yeni, maarifçi-realist, ədəbiyyatı hər cəhətdən müəyyənləşdirdi, bu ədəbiyyatın bünövrəsini bərkitdi.

> ***Şəhərlərdə xanəndə və sazandarların əsasən muğamlardan ibarət olan musiqi sənəti inkişaf edirdi. Onlar muğam musiqisinin təkmilləşdirilməsi üzərində işləyərək muğamların yeni-yeni variantlarını, muğam əsasında təsniflər, mahnılar və oyun havaları yaradırdılar. Bu dövrdə Xarratqulu (1823-1883), Sadıqcan adı ilə məşhur olan Sadıq Əsəd oğlu (1846-1902), daha sonralar Ala Palas oğlu, Hacı Hüsü, Məşədi İsa, Keçəçi oğlu Məmməd, Cabbar Qaryağdı kimi məşhur xanəndələr yetişmişdi. Sadıqcan həm yaxşı səsi olan xanəndə, həm də mahir bir çalğıçı idi. O, tarın və muğamatın təkmilləşməsi üzərində işləyərək bu sahədə bir sıra yeniliklər yaratmışdır***

***1850-1855-ci illər arasında yazdığı klassik komediyaları ilə Axundov Azərbaycan ədəbiyyatında rus və Qərbi Avropa dramaturgiyası səpkisində yeni, realist dramaturgiyanın əsasını qoydu.***

1857-ci ildə yazdığı “Aldanmış kəvakib” povesti ilə M.F.Axundov Azərbaycan ədəbiyyatı tarixində daha yeni bir səhifə açdı. Azərbaycan realist nəsrinin gözəl nümunəsi olan həmin əsərlə o, bu janrın inkişafı üçün zəmin yaratdı. Beləliklə, M.F.Axundov 1850-1857-ci illərdə yazdığı əsərlərilə ədəbiyyatı formalizm, təqlidçilik, mücərrədlik təsirlərindən uzaqlaşdırıb həqiqət mənasında realizm yoluna istiqamətləndirdi. Bu yol XIX əsrdə intişar tapmış rus ədəbiyyatında N.V.Qoqolun yaratdığı və V.Q.Belinskinin “natural məktəb” adlandırdığı tənqidi realizm yolu idi.

M.F.Axundovdan başlayaraq əsrin sonuna qədər yetişən bütün gənc dramaturqlar nəsli öz komediyalarını satirik ruhda yazırdılar.

***Satira janrı dramaturgiyadan nəsr sahəsinə keçərək burada da dərin kök salmaqda idi. M.F.Axundovun “Aldanmış kəvakib” və C.Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” (1894) povesti dərin satirik ruhda yazılmış əsərlər idi. Həmin ərəfədə satira şeir sahəsində də yayılırdı. S.Ə.Şirvani bu istiqamətdə ardıcıl fəaliyyət göstərib, ruhaniləri ifşa edən “Ruhanilik təhsili”, “Köpəyə ehsan”, “Allaha rüşvət” kimi realist əsərlərilə şeirdə satiranı inkişaf etdirirdi. Mirzə İsmayıl Qasir, Hacı ağa Fəqir Ordubadi (M.S.Ordubadinin atası), bakılı bala Sadıq, Güney Azərbaycandan Mirzə Mehdi Şükuhi, Məmmədbağır Xalxali və başqaları da satiranın inkişafı sahəsində az iş görməmişlər. Satiranın bu dövrdə geniş yayılmasının başlıca səbəbi ictimai ziddiyyətlərin daha qabarıq şəkildə üzə çıxması, kəndli hərəkatının qüvvətlənməsi, mütərəqqi qüvvələrin yenilik uğrunda mübarizə apararkən ən geridə qalmış mürtəce qüvvələrə rast gəlməsi idi.***

***M.F.Axundovun realizmi onun mütərəqqi dünyagörüşü ilə möhkəm bağlıdır. Materializm cəbhəsində dayanan ədib ədəbiyyatın idrak əhəmiyyətini təqdim edərək ona varlığın özü kimi baxırdı.***

(ardı gələn sayımızda)